

## Spikerin başçılığı ilə nümayəndə heyəti Türkiyədə səfərdədir

*Xəbər verildiyi kimi, Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 10-dan Türkiyədə rəsmi səfərdədir. Bu, Milli Məclisin Sədri Sahibə Qafarovanın parlament sədri kimi ilk xarici səfəridir. "Unikal" xəbər verir ki, Nümayəndə heyətinin tərkibinə Milli Məclisin Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, komitə sədri Ziyafət Əsgərov...*

Səh.13

# Unikal

№30 (2025) 12 sentyabr 2020-ci il
Qiyməti 40 qəpik
Qurucusu: Asəf Rzayev
www.unikal.org
unikal-1@mail.ru



## Elmar Məmmədyarov həbsin bir addımlığında...



Səh.7

## Məmurların tender oyunları...

## Elton Məmmədov doğrudanmı "Bakı XXI Əsr" şirkətini tanımır? - şok fakt

*Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin II çağırış deputatı (keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşı) Elton Məmmədovun şirkəti kimi tanınan "Bakı XXI Əsr" MMC fəaliyyətinə xitam verir.Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzetində elan yerləşdirilib. Elandan belə məlum olur ki, buna səbəb şirkətin "Top Properties" MMC-yə qoşulmasıdır.Bununla əlaqədar, 2-ci yenidən təşkil olunacaq. "Report"un bildirdiyinə görə,"Bakı XXI Əsr" 2004-cü ildə yaradılıb. Onun nizamnamə kapitalı 14,9 milyon manatdır. Şirkət Bakı Beynəlxalq Avtovağzal Kompleksinin inşası layihəsi üzrə baş podratçı olub, eləcə də uzun illər kompleksi idarə edib. 2017-ci ildə isə avtovağzal Nəqliyyat, Rabitə və YüksəkTexnologiyalar Nazirliyinin balansına keçib. "Top Properties" isə bu il yaradılıb.Onun nizamnamə kapitalı 24,1 milyon manatdır.*

Səh.5

## "Məmurların təzyiqləri bizi haqlı yolumuzdan çəkindirmir"



*Son dövrlər Türkiyə-Azərbaycan münasibətlərinin yaxınlaşması deyəsən Regiondakı bəzi dövlətləri, eləcə də bir sıra Qərb dairələrini narahat etməyə başlayıb. Bu səbəbdən də Azərbaycan tərəfi bütün istiqamətlərdə əlaqələri daha da genişləndirmək yolunu tutub. "Unikal" qəzetinə müsahibə verən Təkamül Partiyasının sədri...*

Səh.4

## Cahangir Əsgərovun müdhiş israfçılığı...



*Yola salmaq üzrə olduğumuz həftə Cahangir Əsgərovun rəhbərlik etdiyi "Azərbaycan Hava Yolları" QSC (AZAL) ilə bağlı maraqlı məlumat yayıldı. Məlumatdan belə məlum olurdu ki, AZAL gül kompozisiyalarının hazırlanmasına min 750 manat xərcləyəcək. Azmarka.az xəbər verib ki, bu məqsədlə keçirilən tenderin qalibi "Hotes Group"...*

Səh.12

## Ziya Məmmədovun qardaşının böyük yalanı...



*Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin II çağırış deputatı (keçmiş nəqliyyat naziri Ziya Məmmədovun qardaşı) Elton Məmmədovun şirkəti kimi tanınan "Bakı XXI Əsr" MMC fəaliyyətinə xitam verir.Bu barədə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin "Vergilər" qəzetində...*

Səh.7

# "Yazırlar ki, çirkin, kifir, nə gündəsən..." - Ruhəngiz Allahverdiyeva

***"Yazırlar çirkindir, kifirdir, nə gündədir, kim olub o... Hamı həyatında hər şey ola bilər: enişli, yoxuşlu yaşayan, çirkin, gözəl, kasıb, dövlətli... Sayqı olmalıdır, bir insanı dərindən tanımırsansa, onun haqqında danışmayın. İnsanlara ancaq yaxşılıq arzulayıram".***



Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Ruhəngiz Allahverdiyeva "Həyat, sevgi və göz yaşları" layihəsində deyib. Müğənni sosial şəbəkədə ünvanına yazılan tənqidlərdən söz açıb.

Həyatından söz açan ifaçı keçirdiyi ağır günlərdən danışıb. O, qardaşlarının onun üçün etdiklərini açıqlayıb:

"Qardaşlarım oxumağa qoymurdu. Anam nəsə satıb, bizi saxlayırdı. Bir nəfər anamdan mal alıb, pulunu vermədi, pis vəziyyətə düşdük. Ailəmin ağır gününə görə oxumağa başladım. Məni hər yerə qardaşlarım aparıb-gətirirdi. Oxuyanda utanırdım, üzümü çevirirdim divara. Hətta harasa gedəndə geyinməyə paltarım olmurdu, qardaşım iki koftasın satıb mənə kostyum almışdı.

Anam övladlarımı saxladı, oxuyub pul qazandım. Qardaşlarıma, bacıma kömək etdim. Öz toyumu da özüm etmişəm. Etdiklərimi demirəm, uşaq evlərinə belə gedəndə gizlətmişəm, çəkilməsinə icazə verməmişəm. Bunu çəkib göstərəndə nə olur ki...

Anam dünyasını dəyişəndə çox ağladım, hər gün yalvarırdım ki, Allahım, anamı mənə göstər. Bir gün oturmuşdum, bir də gördüm anam və xalam. Əməlli başlı Allah onları göstərdi. Yuxu deyildi, gerçək idi. Qorxdum, dedim, Allah, düz edib dünyasını dəyişənləri insana göstərmirsən, adamın ürəyi partlayar".

R.Allahverdiyeva keçmiş həyat yoldaşının qısqanclıqlarından bəhs edib:

"Sevib ailə qurmamışam, tanışlıqla olub. Çox qısqanc idi. Evə qonaq gələndə, küçəyə çıxanda qısqanırdı. Oxumağa da qoymurdu. Xasiyyəti dözüləcək deyildi. Anamın yanında qalırdıq, sonra şəhərə gəldik. Yaxşı yerlərdə işləyirdi, savadlı və yaraşıqlı idi. Gələcəkdə nazir belə ola bilərdi. Ayrıldıq, peşman oldu qayıtdı. Amma qısqanclıqları məni yormuşdu, barışmadım. Sonra evləndi, ondan övladı olmadı, xərçəng xəstəliyinə yoluxdu və cavan yaşda vəfat etdi. İcazə vermirdi ki, ayağımı ayağımın üstünə qoyub oturum. Bir dəfə çaşıb etmişdim, dava düşdü. Bu 30 ildə o, nə deyibsə, o da oldu".

# "Get repini denən" - Nadirdən Miri Yusifə





***Mənə sataşan insan mənim gücümdə olan sənətkar olmalıdır. Qarşımda söz deyən, bir tənqid edən və ya nöqsan tutan mənim sənətimdə olmalıdır. İnsan ulduz da ola bilər. Ən az mənim sənətim qədər olmalıdır.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Nadir Qafarzadə onu bir müddət əvvəl ələ salan Xalq artisti Miri Yusifə cavab olaraq "MTV Azərbaycan"a açıqlamasında deyib. İfaçı repçi ilə qalmaqalı sənətinə yaraşdırmadığını bildirib:

"Ümumiyyətlə, mən bu insanla heç təmasda olmamışam. Münasibətimiz yoxdu. Şokda idim ki, bu adama nələr dedim ki, buna nə oldu ki? Düşünürəm ki, sənətində reper kimi yaxşı sənətkardır, amma musiqi anlamında deyil. Peşəkar musiqiçi deyil. Ola bilər ki, reper kimi qəbul olunmuş sənətkardır. Müğənni kimi yox! Heç belə dostluğumuz, düşmənçiliyimiz də yoxdur. Yəqin, məni yuxuda görüb".

Müğənni onunla üz-üzə gəldiyi halda belə məsələyə aydınlıq gətirmək fikrində olmadığını da açıqlayıb:

"Yox, mənə yaraşmaz o. Bilmirəm onun neçə yaşı var. Onun yaşının 75 faizi, 40 yaşı varsa, mənim 30 il sənət stajım var. Durum o insanla nə kəlmə kəsim?! Sənətdə, səhnələrdə, mədəniyyət, incəsənət üçün külüng döyəndə onlar bilmirəm harada idi. İndi sənətkara dil uzatmaq olmaz. Mənə söz deməyə sənin haqqın yoxdur. Nə yaxşı, nə də pis. Get, repini denən! Xətrini də istəyirəm. Yaxşı oğlan, reper ola bilərsən. Amma mənə toxunmayın! Oturmuşam öz taxt tacımda. Burdan hər şeyi müşahidə edirəm. Oturuşmuş sənətkarlar var, mən onlardanam. Qəbul olunmuşam".

Qeyd edək ki, repçi Nadirlə bağlı sosial şəbəkədə yayılan "Nadir Qafarzadə bir neçə il əvvəl "Kitab oxuyursan" sualına cavab olaraq: Gedək professora deyək ki, "xolodilniki"ni açsın, mən də açım. Görək kimdə doludur" sözlərini İnstaqram-da story bölümündə yerləşdirmişdi.

Miri Yusif "Həyat bumerangdır. Bəzən kiməsə cavab verməyə tələsmək lazım deyil. Çünki dünya fırlanır və qayıdıb dəyir üzünə" sözlərini yazmışdı.



# "Kişi əziyyət verirsə, boşanın" - Niyamdan qadınlara

***"Savadım olmayıb, məktəbdə 3 almışam. günüm "hır-hır"la, oğurluqla keçib".***

Axşam.az xəbər verir ki, bu sözləri müğənni Niyam Salami "Ulduzun vaxtı" proqramında deyib. İfaçı izləyicilərdən gələn sualları cavablandırıb.

Niyam sevgidən danışarkən "Heç vaxt demək olmaz ki, sənsiz yaşaya bilərəm. Elə yaşayırsan ki... Allah qarşına elə bir şey çıxarır ki... Sevməsəm güllər əkərəm, pişik saxlayaram?" sözlərini söyləyib.

Müğənni boşanmalardan bəhs edərək xanımlara səslənib:

"İstər qız, istər oğlan - nə qədər səhv etdin, canından, övladından çıxacaq. Əgər sən pislik etməmisənsə, şükür et ki, ayrılırsan. Qadının hissiyatı, tələbləri var. Qadın elə-belə varlıq deyil, böyük qüvvə, yük və məsuliyyətdir. Onu daşımayan kişi, zəifliyini göstərir.

Qadın qonşu üçün yaşamır. Fikirləşməyin ki, ayrılsam mənə nəsə deyərlər. Qadınsan, Allahın yanında düzsənsə, sənə ər əzab verirsə, boşanmaq lazımdır. Boşanandan sonra isə evlənə bilərsən. Təbiətin qanunudur, qadın dul qalmamalıdır.

Mən də evli olub ayrıldım. Gördüm ailə məsuliyyəti mənlik deyil. Göstəriş üçün toy edim, uşağımı İnstaqramda göstərim? Yox, düzgün həyat yaşamaq istəyirəm".

# Cahangir Əsgərovun müdhiş israfçılığı...

## AZAL rəhbəri tənqidlərdən nəticə çıxarmır - çoxmilyonluq borcların müdhiş sirri!

***Yola salmaq üzrə olduğumuz həftə Cahangir Əsgərovun rəhbərlik etdiyi "Azərbaycan Hava Yolları" QSC (AZAL) ilə bağlı maraqlı məlumat yayıldı. Məlumatdan belə məlum olurdu ki, AZAL gül kompozisiyalarının hazırlanmasına min 750 manat xərcləyəcək. Azmarka.az xəbər verib ki, bu məqsədlə keçirilən tenderin qalibi "Hotes Group" MMC olub.***

Şərtlərə görə, "Hotes Group" aşağıda qeyd edilən şərtlərlə gül kompozisiyalarının hazırlanıb sifarişçinin təqdim etdiyi ünvana çatdırmağı üzərinə götürür:

- gül kompozisiyaları tərtib edilən həsir səbətin ölçüləri sifarişdən asılı olaraq aşağıdakı ölçülərdə olmalıdır: böyük ölçü (1.5 m x 1 m); orta ölçü (1.20 m x 80 sm); kiçik ölçü (90 sm x 60 sm).
- gül kompozisiyalarının ölçüsündən asılı olaraq uzunluğu 1.50 sm olan Ekvador qızılgüllərinin (freedom, explorer) sayı: böyük ölçülü həsir səbətdə 450 ədəd; orta ölçülü həsir səbətdə 300 ədəd; kiçik ölçülü həsir səbətdə 140 ədəd təşkil etməlidir. Qızılgülün tacı 10 sm hündürlüyündə, diametri isə 7 sm olmalıdır.
- gül kompozisiyalarının hər biri qızılgüllərdən əlavə təbii dekor yosunlar, qartenziyalar, zanbaqlar, orxideyalar, vandalar, gingerlər və s. ilə bəzədilməlidir.
- gül kompozisiyalarının dizaynı sifarişçi ilə razılaşdırılaraq hər sifarişdə yeni formatda tərtib edilməlidir.

"Unikal"ın mövzu ilə bağlı araşdırması isə daha maraqlı məqamlara aydınlıq gətirib. Belə ki, tenderi udan MMC bir ildir fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına əsasən "Hotes Group" MMC 24 iyun 2019-cu ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 10 AZN-dir. Hüquqi ünvanı Bakı şəhəri Nərimanov rayonu, Böyük Şor qəsəbəsi (Daş karxana) ev 515-də yerləşən MMC-nin qanuni təmsilçisi Allahverdiyev Ramil Vahid oğludur.



Ancaq, açıq mənbələrdə nə Ramil Allahverdiyev, nə də "Hotes Group" MMC haqqında məlumat var.Ən qəribəsi odur ki, bir dövlət şirkətindən böyük məbləğdə tender udan MMC-nin internet resursu yoxdur. İnformasiya və yeni texnologiyalar əsrində bunun, izahı müşkül məsələdir. Eyni zamanda qeyr-şəffaflığın və hesabatsızlığın parlaq nümunəsi sayılır.

Onu da deyək ki, AZAL-ın tenderləri əksər hallarda oxşar mübahisəli halların yaranmasına yol açır. Bu da onu söyləməyə əsas verir ki, "Azərbaycan Hava Yolları"nın satınalmalarının ciddi araşdırılması labüddür.

Unutmamaq lazımdır ki, hazırda Əsgərovun rəhbərlik etdiyi dövlət şirkətinin təkcə büdcəyə olan borcları yüz milyonlarla manata bərabərdir. Bir çox qaynaqlarda həmin məbləğin hətta 1 milyard manat civarında olduğu vurğulanır. Bu qədər ağır borclanmış bir dövlət şirkətinin təkcə gül kompozisiyalarının hazırlanmasına on minlərcə manat xərcləməsinə hansısa ağlabatan izah tapmaq çətin məsələdir.Bəli, həqiqətən də absurd olan odur ki, təkcə gül kompozisiyaları üçün 43 min manata yaxın pul xərcləyən AZAL borc bataqlığında çapalayır. İş o yerə çatıb ki, ötən ayın əvvəlində keçirdiyi müşavirədə ölkə başçısı C.Əsgərovun rəhbəri olduğu qurumun fəaliyyətini sərt tənqid edib. "AZAL-ın bütün təyyarələri dövlət tərəfindən alınıbdır. Bütün aeroportlar dövlət tərəfindən tikilibdir. Bəs, bunun dövlətə verdiyi mənfəət, gəlir nədir? Bu təyyarələr alınır, onlar istismar edilir. Bəs, bunun gəliri haradadır? Bu, nə vaxt ödəniləcək, götürdüyü kreditləri gərək dövlət zəmanəti hesabına sonra biz ödəyək? Dəmir yolu da, həmçinin. Yeni xətlər çəkilir, yeni vaqonlar, yeni lokomotivlər alınır, yüz milyonlarla manat vəsait ayrılır. Bəs, bunun səmərəsi haradadır? Axı, səmərə ilə işləməlidir" - deyə dövlət rəhbəri qeyd edib.

Büdcədən kifayət qədər dəstək aldığı halda AZAL-ın az qala hər ili zərərlə başa vurmasını, səmərəsi bir yana, borclarının ilbəil artmasını nə ilə izah etmək olar? Adıçəkilən QSC-nin təkcə hansısa gül kompozisiyaları üçün on minlərlə manat xərclədiyini nəzərə aldıqda bu sualın cavabı aydın olur. Açıq görünür ki, Əsgərovun rəhbərlik etdiyi şirkətdə israfçılıq geniş yayılıb. Məhz bu cür başdansovdu xərcləmələrin nəticəsidir ki, "Azərbaycan Hava Yolları" heç cür dirçələ bilmir, dövlət dotasiyalarına baxmayaraq, zərərdən qurtulmur. Hər şey bir yana, büdcə üzərində əlavə yükə çevrilib.

Bir daha sübut olunur ki, AZAL-da köklü kadr və struktur islahatlarının vaxtı yetişib. Adıçəkilən QSC-də köklü reformlar labüddür; ilk növbədə köhnə idarəçilik prinsiplərinin əvəzlənməsinə, müasirləşməsinə və modernləşməsinə əşhədü-ehtiyac var. Əks halda gül kompozisiyalarına on minlərlə manatı "səxavətlə" xərcləyən bu qurum nəinki dövlət xəzinəsinə hansısa fayda verə bilər, əksinə, öz borclarını daha da artırar. Eyni zamanda büdcə üzərindəki yükünü bir az da ağırlaşdırar...

***Sənan Mirzə***

# Nazirlik deputata cavab verdi

## Vuqar Bayramov: "Rəqəmlərdə deyil, vətəndaşa əlilik dərəcələri təyin edəndə yanlışlığa yol verməmək lazımdır"

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi deputat Vüqar Bayramovun yanlışlıqlara yol verdiyini bildirib.***

"Unikal" xəbər verir ki, bu barədə nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıblı məlumat verib.

"Vüqar Bayramov öz "Facebook" hesabında paylaşdığı postda əlilliyin təyinatındakı çətinliklər, müraciətlərə imtinalar, o cümlədən Füzuli rayonu üzrə statistik məlumatlarda bir sıra yanlışlıqlara yol verib",- deyə F.Talıblı əlavə edib.

O deyib ki, əslində bu ilin səkkiz ayında Füzuli Rayon Mərkəzi Xəstəxanası tərəfindən əlilliyin qiymətləndirilməsi məqsədilə 217 şəxsə dair ümumilikdə 255 göndəriş (Forma 088) rəsmiləşdirilib. Onlardan 114-ü ilkin, 141-i isə təkrar göndərişlərdir.

Bu göndərişlər əsasında 37 nəfərə əlillik dərəcəsi, 40 nəfərə isə sağlamlıq imkanları məhdudluğu təyinatı aparılmış, 18 nəfərə aid göndərişlər isə qiymətləndirilmə prosesindədir.



"160 göndəriş üzrə müxtəlif səbəblərdən imtina qərarı verilib. Belə ki, həmin göndərişlərdə, stasionar müalicə müddətlərinin azlığı, müayinələr və ağırlaşmaların arasında uyğunsuzluğun olması, xəstəlik barədə mütəxəssislərin rəyinin qeyd olunmaması, funksional pozğunluqlar barədə məlumatın göstərilməməsi, diaqnozu təsdiqləyən müayinələrin tam aparılmaması, xəstəliyin başlanma tarixi ilə müalicə tarixlərinin ziddiyyət təşkil etməsi, xəstəliyin xarakteri ilə ümumtəhsil müəssisəsində təhsil almaqla bağlı məlumatlarda uyğunsuzluğun olması və s. səbəblərdən əlillik təyinatı aparılmayıb",- deyə F.Talıblı bildirib.

Onun sözlərinə görə, əlilliyin qiymətləndirilməsi sahəsində şəffaflığın artırılması və əlillik təyinatlarında ünvanlılığın təmin olunması məqsədilə davamlı olaraq aparılan araşdırmalar nəticəsində indiyədək 6500-dən çox şəxsə verilən əsassız əlillik təyinatları ləğv edilib.

"Bu təyinatlar üzrə dövlət büdcəsinin illik qənaəti 30 milyon manata yaxındır. Uzunmüddətli dövr üzrə dövlət büdcəsinin qənaəti 700 milyon manatdan yuxarıdır.

Bilinməlidir ki, ləğv edilən əlillik təyinatlarından 42 nəfərə dair göndərişlər məhz Füzuli RMX tərəfindən rəsmiləşdirilib. Belə ki, həmin şəxslərə rəsmiləşdirilən göndərişlərdə təqdim olunan məlumatların öz təsdiqini tapmaması, qeyd edilən diaqnozların şişirdilməsi, vətəndaşla bağlı digər elektron informasiya sistemlərində toplanan məlumatların ziddiyyət təşkil etməsi kimi faktlar müəyyənləşdirilib.

Göndərişlərdə qeyd edilən məlumatların etibarlılığını ciddi sual atına qoyan bu kimi hallar Tibbi sosial ekspert komissiyalarını daha da diqqətli olmağa, eyni zamanda şübhəli, ziddiyyətli və tam təqdim olunmayan məlumatlar əsasında rəsmiləşdirilən göndərişlər barədə qərar verərkən daha ehtiyatlı olmağa vadar edir.

Onu da qeyd etmək lazımdır ki, bu kimi problemlərin aradan qaldırılması üçün göndərişin rəsmiləşdirilməsində əsas götürülən digər tibbi sənədlərin (epikriz, tibbi rəy və s.) elektronlaşdırılması zəruridir. Bu istiqamətdə Səhiyyə Nazirliyinin və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin gördüyü tədbirlərin qısa müddətdə nəticə verəcəyinə əminik".

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi əlilik dərəcəsinin verilməsi ilə bağlı problemlərin həllinə diqqət ayırmaqdan daha çox təəssüf ki, Füzuli Rayon Mərkəzi Xəstəxanasının təqdim etdiyi göstəricilərinin təhlilini aparıb. Bu barədə millət vəkili Vüqar Bayramov Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin onun əlilliyin təyinatındakı çətinliklərlə bağlı müraciətinə verdiyi cavabı şərh edərkən bildirib.

"Bu rəqəmlər eyni mənbədən alınıb. Söhbət Rayon Mərkəzi Xəstəxanasının təqdim etdiyi göstəricilərindən gedir. Əslində, nazirlik özü də etiraf edir ki, bu ilin 8 ayında Füzuli rayonundan olan 217 şəxslə bağlı müraciətin cəmi 37-nə əlillik dərəcəsi təyin olunub və 160 göndərişə birbaşa imtina verilib.

Nazirliyin özünün təqdim etdiyi rəqəmlərdə əlilliyin təyinatı və imtina faizləri arasında fərqin böyüklüyünü asanlıqla görmək olar. Göründüyü kimi, nazirliyin rəqəmləri xəstəxanadan aldığımız göstəricilərlə müqayisədə daha bədbindr. Bu isə ondan xəbər verir ki, bu sahədə vəziyyətin yaxşılaşdırılması, şəffaflıq və səmərəliliyin artırılması üçün mövcud mexanizmin təkmilləşdirilməsinə ehtiyac var. Rəqəmlərdə deyil, vətəndaşa əlilik dərəcələri təyin edəndə yanlışlığa yol verməmək lazımdır", - deyə deputat qeyd edib.

***Hüseyn***



# Qarabağ danışıqlarına Azərbaycana yaxın dövlətlər cəlb olunmalıdır

***Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların nəticə verməməsi Azərbaycan tərəfini ciddi narahat etməkdədir. Vasitəçi dövlətlərin prosesə yanaşması danışıqların uzadılmasından başqa heç nəyə xidmət eləmir.***

"Unikal" qəzetinin son dövrlər apardığı araşdırma və müşahidələr də onu deməyə əsas verir ki, Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqların ya prinsipləri dəyişməlidir, ya da vasitəçi dövlətlərin sırasına yeniləri əlavə olunmalıdır. Burada Azərbaycanın əsas müttəfiqlərindən sayılan, eləcə də regionda güc mərkəzlərindən birinə çevrilən Türkiyənin prosesə cəlbindən söhbət gedə bilər.

**Milli Məclisin deputatı Müşfiq Cəfərov hesab edir ki,** ATƏT-in Minsk qrupunun vasitəçiliyi iflasa uğramaqdadır: "Biz gözləyirik ki, ATƏT-in Minsk qrupu Ermənistanın bu seperatçı davranışına qarşı əməli tədbir görsün, eləcə də işğalçı ölkə rəhbərliyindən dövlətimizin beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə tam hörmət göstərərək BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal edilmiş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılmasını tələb edən 4 qətnaməsini qeyri-şərtsiz icra etməsini tələb etsin. Düşünürəm ki, Nikol Paşinyanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə səfər etməsi, orada döyüş postlarını gəzib bəyanatlar verməsi bir daha onu göstərir ki, Ermənistan hakimiyyəti heç bir sülh danışıqlarına razı deyil. İşğalçı ölkənin hakimiyyəti qanunsuz davranışlarını davam etdirir.İşğalçı niyyətini açıq aşkar ortaya qoyan Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağda, Azərbaycan torpaqlarında "təntənəli" mərasim keçirib və generalımız Polad Həşimovun da şəhid olduğu Tovuzdakı iyul döyüşlərinin iştirakçılarına müxtəlif medal və ordenlər, kapitan Ruben Samayana isə şəxsən "milli qəhrəman" mükafatı verib. Görünən odur ki, Paşinyan öz sələflərinin və faşist babasının faşizmə olan dəstəyini davam etdirib daha da möhkəmlənməsinə çalışır. Artıq mötəbər beynəlxalq birlik və təşkilatlar Ermənistan dövlətinin işğalçı mövqeyini, terrorizmə olan dəstəyini görməli və ifşa etməlidir.

Millət vəkili onu da nəzərə çatdırıb ki, Azərbaycan-Türkiyə əlaqələrində hərbi əməkdaşlıq da mühüm yer tutur: "Bilirsiniz ki, hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq iyulun 29-dan avqustun 10-dək ölkəmizdə hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə genişmiqyaslı döyüşatışlı taktiki və taktiki-uçuş təlimləri keçirilib. Hər il Azərbaycan və Türkiyə silahlı qüvvələri birgə hərbi təlimlər keçirirlər. Prezident İlham Əliyev Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən bildirib ki, hərbi əməkdaşlıq baxımından bu təlimlərin çox böyük önəmi var, eyni zamanda, insanlar arasındakı əlaqələrin, xalqlar arasındakı qardaşlığın gücləndirilməsi üçün təlimlərin çox böyük əhəmiyyəti və faydası var.İki ölkə arasında hərbi əməkdaşlığın bugünkü vəziyyətini 3 vacib məsələ müəyyənləşdirir. Birincisi, NATO ilə əməkdaşlıq sənədləri, bu çərçivədə NATO-nun aparıcı ölkələrindən olan Türkiyə - Azərbaycan Silahlı Qüvvələrinin modernləşdirilməsinə kömək göstərir. İkincisi, Azərbaycanın təhlükəsizlik sənədləri və iki ölkə arasında imzalanmış strateji müqavilələr, üçüncüsü isə Türkiyənin milli regional maraqları və həmçinin, qardaş ölkənin milli təhlükəsizlik sənədləri ilə bağlıdır.İki ölkə arasında hərbi əməkdaşlıq baxımından perspektiv planlar da mövcuddur. Buraya hərbi kadrların hazırlanması, maddi-texniki təchizat məsələlərindən tutmuş, müdafiə sənayesi sahəsində yeni birgə əməkdaşlığa qədər məsələlər daxildir. Perspektivdə iki ölkə arasında hərtərəfli hərbi əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni imkanlar mövcuddur. Türkiyə Azərbaycana taktiki və strateji dövrdə hərbi dəstəyini davam etdirməkdə qərarlıdır.Ermənistanın işğalı nəticəsində nəzarətdən kənar qalmış Azərbaycan sərhədlərindən qeyri-qanuni məqsədlərlə istifadə məsələsi Türkiyə-Azərbaycan hərbi əməkdaşlığı üçün mühüm istiqamətlərdən hesab olunur. Belə ki, iki ölkə terrorizmdən əziyyət çəkməklə bu istiqamətdə ayrı-ayrılıqda və birgə mübarizənin bu günü və perspektivlərini həmişə diqqət mərkəzində saxlayır".

**Politoloq Məhəmməd Əsədullazadə isə fərqli bir təkliflə çıxış edib.** O bildirib ki, Azərbaycan Xarici İşlər nazirliyinin əsas proqramlarından biri Mərkəzi Asiya dövlətlərii lə sıx işləmək, buradakı diaspor və lobbi qruplarını yaratmalıdır. Onun qənaətincə, ABŞ, Rusiya və Çin Mərkəzi Asiya uğrunda mübarizə aparır və tərəflərin maraq toqquşması davam edir:"Nədənsə, rəsmi Bakı Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığa barmaqarası baxır. Məhz onun nəticəsidir ki, Rusiya Ermənistana silahları Qazaxıstan, Türkmənistanın hava məkanından istifadə edərək daşıyır.

Mərkəzi Asiya etnik və dini baxımından, həmçinin coğrafi olaraq bizə daha yaxındır. Bu ölkələrlə əməkdaşlıq qurmaq daha da uğurlu olar. Hətta müttəfiqlik müqavilələri bağlanmalıdır. Mütləq şəkildə XİN bu istiqamətdə fəaliyyətini genişləndirməlidir.Hazırda Ermənistan Qazaxıstan və Qırğızıstanda fəaliyyətini genişləndirir. Azərbaycan əleyhinə siyasət formalaşdırır. Rəsmi Bakı isə, hələ də sadəcə bəyanatlarla kifayətlənir. Bu ölkələrlə beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlıq səmərəli deyil. İkitərəfli əlaqələri gücləndirmək lazımdır. MDB, Türk Şurası çərçivəsində siyasət uğrulu nəticə vermir. Ona görə də Mərkəzi Asiya, Türk respublikalarına XİN rəhbəri Ceyhun Byaramovun səfəri zəruridir. Ardınca, prezidentin səfərinə ehtiyac var.

Mərkəzi Asiya ölkələrinin tam dəstəyinə ehtiyac var. Bu ölkələri Ermənistan əleyhinə koalisiyaya qoşmalıyıq. Türkiyəni də bu prosesə cəlb etmək lazımdır. Ötən ay Qazaxıstanla Ermənistan arasında neft sahəsində müqavilə imzalandı. Göründüyü kimi Qazaxıstan kimi böyük bir türk dövləti Ermənistanla münasibətlərini istiləşdirir.

Bu, rəsmi Bakının Mərkəzi Asiya siyasətinin fiaskosuna gətirib çıxara bilər. Dünya gücləri Mərkəzi Asiyaya nəzarət uğrunda mübarizə aparır, Ermənistan başımızın üzərindən bu ölkələrlə siyasi-iqtisadi əlaqələri möhkəmləndirir. Rəsmi Bakı isə, hələ ki, gözləmə mövqeyindədir".

**Politoloq Xarici İşlər naziri Ceyhun Bayramova müraciət edərək bildirib ki,** proseslər ölkəmizin əleyhinə işləyir:"Türkiyəyə ilk səfərdən sonra, növbəti səfər Mərkəzi Asiya türk dövlətlərinə olmalıdır. Siyasi nizam sürətlə dəyişir və Ermənistanın Mərkəzi Asiya siyasətinin qarşısını almalıyıq. Bu istiqamətdə siyasəti prezidentin üstünə yıxmalıyıq? Xarici İşlər nazirliyinin öz konsepsiyası olmalıdır.Milli Cəbhə partiyası olaraq bizim əsas hədəflərimizdən biri xarici siyasətdə türkdilli ölkələrlə əlaqələri yüksək səviyyədə qurmaqdır".

***Z.Məmmədli***

# Təhsil Nazirliyindən valideynlərə MÜRACİƏT

***"Valideynlərə müraciət edirik ki, övladınızın səhhətində hər hansı problem, COVİD-ə bənzər simptomu varsa, məktəbə gətirməyin".***

Unikal.org xəbər verir ki, bunu Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin təşkilinin müvəqqəti Qaydaları" barədə qərarına həsr olunan onlayn mətbuat konfransında Təhsil nazirinin müşaviri Rüstəm Ağayev bildirib.

Onun sözlərinə görə, kimsə dərman içib, hərarəti salıb, məktəbə gələ bilər: "Biz bütün şagirdləri bu cür yoxlaya bilmərik. Türkiyədə xüsusi iltizam formaları var ki, valideyn öhdəlik götürür. Ailədə simptom varsa, ilk olaraq məktəb rəhbərliyinə məlumat verirlər və dərsə aparmırlar. Belə problem yaransa, Təhsil Nazirliyinin yanında da bir Operativ Qərargah olacaq, orada gündəlik yoluxanları birbaşa nəzarətə götürüb, Gigiyena və Epidemiologiya Mərkəzi, Səhiyyə Nazirliyi və TƏBİB-lə birgə izləyəcəyik. Əgər hər hansı müəllim və ya şagirddə virus aşkarlansa, qərar veriləcək ki, sinif lokal və ya məktəb ümumilikdə bağlansın. Ona görə valideynlər buna diqqət etməlidir".